İPƏK YOLU, No.1, 2026, səh.249-256
https://doi.org/10.30546/SI.2026.001.1138

# SARI RƏNGİN FOLKLORDA VƏ MİFOLOJİ SEMANTİKADA İKİLİ SİMVOLİKASI

**Fərqanə Qurbanlı**

Polis Akademiyası, Daxili İşlər Nazirliyi, Bakı, Azərbaycan
e-mail: qurbanli.ferqane@gmail.com

**Xülasə.** Rənglər yalnız vizual təsvir vasitəsi deyil, həm də mədəniyyətin dərin mənəvi kodlarıdır. Azərbaycan folklorunda sarı rəng həm pozitiv, işıq, günəş, bərəkət, seçilmişlik, həm də neqativ, xəstəlik, zəiflik, hiyləgərlik və təhlükə kimi mənalarla yüklənmişdir. Dədə Qorqud dastanlarında "sarı don", bayatılarda "sarı gül", əfsanə və nağıllarda "sarı at", "sarı bülbül", "sarı qızıl" kimi motivlər vasitəsilə bu rəng həm həyatverici işıq, həm də xəbərdaredici simvol kimi çıxış edir.

**Açar sözlər:** Sarı rəng, simvolika, Azərbaycan folkloru, bayatı, nağıl, günəş kultu, şamanizm, mifologiya.

**THE DUAL SYMBOLISM OF THE COLOR YELLOW IN FOLKLORE AND MYTHOLOGICAL SEMANTICS**

**Fergana Gurbanli**
*Police Academy, Ministry of Internal Affairs, Baku, Azerbaijan*

**Abstract.** In traditional culture, colors function not merely as visual elements but as carriers of profound symbolic and semantic meanings. In Azerbaijani folklore, the color *sarı* (yellow) possesses a complex polysemy: on one hand, it represents positive aspects such as light, the sun, fertility and chosenness; on the other hand, it conveys negative connotations of illness, weakness, deceit and danger. In *Dədə Qorqud*, through motifs like "sarı don", in bayatı the "sarı gül" and in legends and fairy tales the "sarı at", "sarı bülbül" and "sarı qızıl", this color operates both as a symbol of life-giving energy and as a sign of warning.
**Keywords:** Yellow colour, symbolism, Azerbaijani folklore, bayatı, fairy tale, solar cult, shamanism, mythology.

## 1. Giriş

Rəng anlayışı insanın ilkin təfəkkür formalarından biridir. Ən qədim dövrlərdən etibarən rənglər kosmoqonik, dini və sosial mənalar daşıyır, insanın dünyanı qavrama modelində mühüm yer tutur. Xüsusilə, sarı rəng qədim türklərin və Azərbaycan xalqının təsəvvüründə həm işığın, həyatın və bərəkətin, həm də xəbərdarlığın və zəifliyin göstəricisi kimi çıxış etmişdir. Rənglərin folklor və mifoloji semantikası müasir humanitar elmlərdə mədəni kodların və kollektiv yaddaşın öyrənilməsi baxımından aktual tədqiqat sahəsidir. Azərbaycan folklorunda sarı rəng həm işıq, günəş və bərəkət, həm də xəstəlik və xəbərdarlıq mənaları ilə yüklənmiş ambivalent simvol kimi çıxış edir. Genç [4] və Ögelin [8] tədqiqatları sarı rəngin türk mədəniyyətində çoxqatlı semantikaya malik olduğunu göstərir. Lakin Azərbaycan folklor materialları əsasında bu ikili semantikanın sistemli təhlili məhduddur. Məqalənin məqsədi sarı rəngin dastan, bayatı, nağıl və əfsanə mətnlərində funksional-semantik rolunu müəyyənləşdirməkdir.

**Tədqiqatın metodologiyası və material bazası:** Araşdırma müqayisəli-semantik, struktur-semiotik və mifopoetik yanaşma prinsiplərinə əsaslanır, material bazasını isə

Azərbaycan folklorunun əsas janrları - dastan, nağıl, bayatı və əfsanə nümunələri təşkil edir. Müqayisəli-semantik üsul sarı rəngin müxtəlif folklor janrlarında daşıdığı mənaların qarşılaşdırılmasında, struktur-semiotik yanaşma rəngin simvolik funksiyalarının müəyyənləşdirilməsində tətbiq edilmişdir. Mifopoetik təhlil "sarı don", "sarı gül", "sarı at", "sarı bülbül" kimi obrazların günəş kultu və arxaik inanclarla əlaqəsinin araşdırılmasında istifadə olunmuşdur.

Məqsəd Azərbaycan folklorunda və türk mifoloji sistemində sarı rəngin ikili - həm işıq və bərəkət, həm də kədər və xəbərdarlıq mənalarını təhlil etməkdir.

Tədqiqatın predmetini sarı rəngin folklor və mifoloji mətnlərdəki semantik funksiyaları və simvolik təzahür formaları təşkil edir.

Azərbaycan folklorunda sarı rəngin semantik xəritəsi çoxqatlıdır: qəhrəmanın geyimindən (sarı donlu Selcan xatun), təbiət və bitki motivlərinə (sarı gül), totemik/zoomorfik obrazlara (sarı bülbül, sarı at) və kosmoqonik təsəvvürlərə (Günəş-işıq-sünbül) qədər geniş yayılmışdır. Eyni zamanda, xalq deyimlərində və poetik mətnlərdə "saralma", "sarılıq" kimi ifadələr xəstəlik, halsızlıq və solğunluq mənaları ilə əlaqələnmişdir. Bu semantik ikiqatlıq sarı rəngi Azərbaycan mifoloji təfəkküründə ikimənalı simvol səviyyəsinə yüksəldir: bir tərəfdən, o, bərəkət və işıqverici ilahi nurun ifadəsidir; digər tərəfdən, zəiflik və xəstəlik kimi mənəvi və fiziki təhlükələrin xəbərdaredicisidir. Bütün bunlar sarı rəngin Azərbaycan şifahi ədəbiyyatında mərkəzi, çoxmənalı semantik vahidə çevrildiyini göstərir. Bu məqalədə məqsəd sarı rəngin folklor, mif və poetika səviyyələrində təzahürünü, həmçinin onun sosial-semiotik və mədəniyyətlərarası funksiyalarını müəyyənləşdirməkdir.

Azərbaycan epik ənənəsində rənglərin semantikası təkcə estetik bəzək elementi deyil, həm də sosial və mənəvi kodlaşdırma vasitəsidir. Dədə Qorqud boylarında, xüsusilə "Qanlı Qoca oğlu Qanturalı" boyunda "sarı don" motivi bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Boyda Selcan xatun obrazı digər qızlardan fərqli şəkildə təqdim edilir: *"Qız meydanda bir köşk düzəltdirmişdi. Yanında olan bütün qızlar al geyinmiş, təkcə özü sarı rəngli don geymişdi"* [6, s.251]. Bu epizodda rəng sadəcə geyim detalı deyil, status və seçilmişlik göstəricisidir. Sarı rəng Selcan xatunun sosial mövqeyini və fərqliliyini vurğulayır. O, Trabzon təkurunun qızıdır və geyimi onun liderlik, gözəllik və aristokratik mənsubiyyətinin rəmzidir. Genç bu motivi belə izah edir: *"Dədə Qorqud dastanlarında işlənən "sarı tonlu Selcan xatun" ifadəsi, xatunluq geyiminin də sarı rəngdə olduğunu göstərməsi baxımından diqqətəlayiqdir"* [4]. Buna qarşı olaraq Ögel fərqli yanaşma təklif edir: *"Dədə Qorqud'da müsəlman qızların qırmızı və qara geyimlər geyindikləri, Selcan xatun nümunəsində olduğu kimi, kafir qızların isə sarı rəngli geyimlərdə təsvir olunduqları müşahidə edilir"* [8, s.487]. Beləliklə, sarı rəng bir tərəfdən gözəllik və liderlik, digər tərəfdən dini mənsubiyyət və mənəvi ayrılıq simvolu kimi ikiqat məna daşıyır. Bu fakt rəngin kontekstual semantikasını, yəni mənasının situasiyadan asılı dəyişkənliyini göstərir.

Sarı don motivi həm də estetik fərqləndirmə vasitəsidir. Sarı rəngin parlaq, diqqətcəlbedici təbiəti Selcan xatunu "digərlərindən ayırır", onu həm zahiri, həm də mənəvi planda mərkəzi fiqura çevirir. Burada rəng poetik status göstəricisinə çevrilir, yəni o, qəhrəmanın sosial mənsubluğunu, daxili ucalığını və seçilmişliyini bildirir. Bununla yanaşı, rəngin sakral mənşəyi də unudulmamalıdır. Sarı rəng günəş və işıqla əlaqədardır. Qədim türklər üçün günəş həyatverici qüvvə sayıldığından, bu rəngin "don"da işlədilməsi təsadüfi deyil. Bu, Selcan xatunun nurani, işıqlı təbiətini, eyni zamanda qəhrəmanın "müqəddəs missiyasını" simvolizə edir.

Bəzi tədqiqatçılar sarı rəngi dini və mədəni mənsubiyyət kodu kimi oxuyur. Ögelin qeyd etdiyi kimi, "sarı" burada "kafir mədəniyyətinə" aid atribut kimi də başa düşülür, bu da dastanda mədəni sərhədlərin vizual işarəsi rolunu oynayır. Digər tərəfdən, türk epos ənənəsində sarı rəng çox vaxt qızıl və günəş simvolları ilə eyniləşir; Ögel yazır: *"Qədim türklərdə sarı və qızılı rənglər çox vaxt bir-birindən ayrılmadan, birlikdə işlədilirdi"* [8, s.484].

Azərbaycan bayatıları xalqın emosional dünyasının, məhəbbət, həsrət və ayrılıq duyğularının poetik güzgüsüdür. Bu janrda rənglər, xüsusən də sarı rəng, daxili vəziyyətin, ruh halının, bəzən isə taleyin işarəsi kimi təqdim olunur. Bayatıların semantik sistemində sarı rəng iki əsas istiqamətdə təzahür edir: pozitiv və sakral semantika: işıq, bərəkət, təmizlik, qadın zərifliyi; neqativ və emosional semantika: ayrılıq, kədər, saralma, solğunluq.

Bayatıların məzmunu göstərir ki, sarı rəng bir tərəfdən gözəlliyin və sevgilinin cazibəsinin, digər tərəfdən isə aşiqlərin dərd və həsrətinin bədii simvoluna çevrilir. Bu baxımdan aşağıdakı nümunələr xüsusi maraq doğurur:

*Arxalığın sarıdı,*
*Sinən dağın qarıdı.*
*Mən yazığın çəkdiyi,*
*Yarın ahü-zarıdı* [1, s.48].

Bu bayatıda "sarı arxalıq" ifadəsi sevgilinin geyiminin cazibəsini və onun zərifliyini bildirir. Lakin ikinci misradakı "dağın qarı" bənzətməsi ilə birləşərək sarı rəng soyuqluq və uzaqlıq hissi də yaradır, yəni sarı burada həm "gözəllik", həm də "əlçatmazlıq" simvoludur. Digər bayatı isə bu ikimənalığı daha aydın şəkildə ifadə edir:

*Geyinibdi yar sarı,*
*Bayqu ilə yar sarı.*
*Kəbədə ölsə aşiq,*
*Yönün qoyun yar sarı* [1, s.123].

Burada "yar sarı" həm məhəbbət işığı, həm də ibadət məqamında qiblə yönünü bildirən metaforik anlam daşıyır. "Sarı" rəng bu kontekstdə işıq və istiqamət simvoluna çevrilir.

Aşağıdakı bayatı isə sarının ölüm və ayrılıq semantikasına keçidini göstərir:

*Əziziyəm, sarı qız,*
*Sarı köynək, sarı qız.*

*Aç belinin qurşağın,*
*Cənazəmi sarı, qız* [1, s.269].

Burada sarı rəng "sarı köynək" obrazı vasitəsilə həm sevgili ilə, həm də ölüm və ayrılıq duyğusu ilə bağlanır. Aşıq "cənazəmi sarı" deyərkən həm sevginin sonluğunu, həm də həyatın faniliyini poetik şəkildə ifadə edir. "Sarı gül" motivi bayatılarda ən çox rast gəlinən bitki simvoludur və əsasən ayrılıq, kədər və sükunət emosiyasını daşıyır. Məsələn:

*Həyətləri sarı gül,*
*Yarı qönçə, yarı gül.*
*Gözlərindən sil yaşı,*
*Ayrılıqdı, barı gül* [1, s.176].

Bu bayatıdakı "sarı gül" ilk misrada ayrılıq simvolu kimi təqdim olunur. Rəngin solğunluğu ayrılığın sükutunu, "yarı gül, yarı qönçə" isə sevginin yarımçıq qalmasını bildirir. Belə poetik nümunələr göstərir ki, sarı rəng bayatılarda emosional keçidlərin bədii nişanı rolunu oynayır. O, həm daxili ağrının poetik ifadəsi, həm də bərəkət və təmizlik simvolu kimi görünür.

Digər bir poetik xətt "saralma" və "solğunluq" metaforik sistemidir. Bu, insanın mənəvi və fiziki halını təsvir edən arxaik ifadə formasıdır. Xalq danışığında "rəngi saralıb solub" ifadəsi haldan düşmüş, dərdli insanı təsvir edir. Bu ifadə bayatılarda da poetik fiqura çevrilib:

*Eləmi gözəl kimi,*
*Baxırsan gözəl kimi.*
*Dərddən saraldı düşdü,*
*Ürəyim xəzəl kimi* [1, s.44].

"Saraldı düşdü" ifadəsi burada sevgidən əzab çəkən aşiqin fiziki halının poetik simvoludur. Rəngin solması bədii mətnin emosional tonunu müəyyənləşdirir.

Bütün bu nümunələrdə sarı rəng həm mənəvi dərinliyin, həm də zəifliyin və fani dünyanın təcəssümüdür. Həmçinin bayatılardakı sarı obraz qadın və təbiət metaforik sisteminin bir parçası kimi çıxış edir: "sarı gül", "sarı qız", "sarı arxalıq" kimi ifadələr zəriflik, təmizlik və fədakarlıq ideyalarını daşıyır. Bu motivlərin semantik kökü qədim türk mədəniyyətindəki günəş-işıq-bərəkət sisteminə dayanır. Günəşin sarı işığı həyatın qaynağı kimi qəbul edilirdi. Həmçinin bahar vaxtı Hindistanda subay qızların sarı geyim geyinməsi ənənəsi (iffət və saflıq simvolu) bu universal anlayışın başqa mədəniyyətdəki təzahürüdür. Bu kontekstdə "sarı gül" və "sarı don" obrazlarının eyni ideya xəttini, namus, təmizlik, sadiqlik ifadə etdiyini söyləmək olar.

Azərbaycan xalq ədəbiyyatında "Sarı bülbül" əfsanəsi bu rəngin mənəvi dəyərlərlə əlaqəsini ən aydın göstərən mətnlərdən biridir. Əfsanəyə görə Alı adlı bir gənc gözəl bir qızı sevir. Qız ondan qarlı qış vaxtı qırmızı gül istəyir. Alı yalnız ağ gül tapa bilir, lakin qızın israrı qarşısında qırmızı gül axtarışına çıxır. Yolda sarı bülbül ilə rastlaşır və dərdini ona danışır.

Bülbül ağ gülü görüb özünü tikanlara vurur, sarı sinəsi qırmızıya boyanır və beləliklə, ağ gül qırmızıya çevrilir. *"Sarı bülbül ağ gülü görüb vəcdə gəlir, özünü çırpır gülün tikanlarına, sarı köksü al qırmızı olur, gül də nəticədə qırmızıya dönür"* [9, s.260]. Burada sarı bülbül sədaqət və fədakarlığın poetik modeli kimi çıxış edir. Rəngin dəyişməsi bir növ sevginin qurbanlıq və təmizlənmə mərhələsini bildirir. Bu dəyişmə həm fiziki, həm də mənəvi metamorfozun ifadəsidir: sarı bülbül sevginin uğrunda öz varlığını fəda edir.

Nağıl poetikasında sarı rəng bəzən həsrət və xəstəlik simvolu kimi çıxış edir. "Pəri xanım" nağılında padşah oğlu Allahverdixan pəri obrazına vurulur və eşqdən xəstələnir: *"Bu oğlan fikirdən sapsarı saralır. Padşah gördü ki, oğlu günü-gündən arıqlayır. Heç kim də dərdinə dərman edə bilmir"* [3, s.279]. Bu nümunədə "sapsarı saralmaq" ifadəsi daxili yanğı və ruhən zəifləmənin poetik əlamətidir. Burada sarı rəng xəstəliyin və məhəbbət dərdinin somatik göstəricisinə çevrilir.

Sarı rəngin mənfi qatları da nağıl mətnlərində özünü göstərir. *"Qarı ki, sarı-sarı qızılları gördü, imanı getdi cibinə"* [2, s.105] ifadəsi qızıl hərisliyi, maddi korluq və imanın itirilməsi kimi mənəvi düşkünlüyü təsvir edir. Bu zaman sarı rəng artıq xəbərdarlıqedici və mənfi semantik funksiyaya malik olur: o, insanı azdıran, dünyəvi ehtirası simvolizə edir.

Xalq əfsanələrində günəşlə bağlı süjetlərdə sarı rəngin ilahi işıq və müqəddəslik mənası ön plana çıxır. "Dədə Günəş" əfsanəsində günəşin sönməz gücü təsvir edilir: *"Ərəblər Dədə Günəşi tutub öldürmək istəyirlər, amma su da, od da, yer də, göy də onun tərəfində olur. O, adi bir insan deyil, bütöv bir vətəndi"* [9, s.260]. Burada sarı günəş müqavimət, bərəkət və həyatın başlanğıcı kimi təqdim olunur. Günəşin sarılığı, onun parlaq işığı "ilahi ədalət" konsepsiyasını bədii şəkildə ifadə edir.

Eyni semantik xətt "Göyün qəzəbi" əfsanəsində də davam edir: *"Göy qəzəblənir, yerdən yeddi qat uzaqlaşır. Buğda sünbülü də fəryad qoparır, aşağıdan yoluna-yoluna çağırır, heyvanlar mələşir, atlar kişnəşir, itlər ulaşır. Sünbülün harayı kəsilmir, başında bir az dən saxlayır, onu da çörəyin qədrini bilənlərə"* [9, s.253]. Bu əfsanədə "sarı sünbül" bolluğun, ümidin və ilahi bağışlanmanın simvoluna çevrilir. Sarı rəng burada artıq yalnız vizual detal deyil, kosmoqonik funksiyalı sakral rəmzdir.

"Sarı at" motivi həm nağıllarda, həm də dastanlarda qəhrəmanın xilaskarı kimi təqdim olunur. Qafarlı bu cür təsvirləri qədim inanc sistemləri ilə bağlayır və qeyd edir ki, türk xalqları günəşə at qurban etmə mərasimləri ilə günəşin həyatverici enerjisini simvolik şəkildə yad etmişlər [10, s.52]. Bununla yanaşı, bəzi fal kitablarında "sarı atın hörüyünün açılması" pis əlamət, "sarı atlı çaparın gəlməsi" isə xoş xəbər kimi yozulur [5, s.40].

Şaman təfəkküründə at "ruh səyahətinin miniyi" kimi çıxış edir. Qədim türk miflərində insanın ruhu atla səma aləminə yüksəlir, yaxud qəhrəmanlar at vasitəsilə fövqəltəbii güclərdən kömək alırdılar. *"Dastanların bir çoxunda atlar qəhrəmanlar kimi fövqəladə qüvvəyə malik olurlar"* [10, s.52]. Bu baxımdan, sarı at həm də günəşin simvolik miniyi kimi dəyərləndirilir. Bu fikir mərasim nəğmələrində də aydın şəkildə görünür:

*Gün çıx, gün çıx, kəhər atı min çıx,*

*Keçəl qızı evdə tut, telli qızı al çıx.*
*Gün kəndini yetirir, keçəl qızı götürür,*
*Telli qızı gətirir...*

Bu nəğmədə "kəhər at" günəşi daşıyan, yəni günəşi üfüqə gətirən varlıq kimi təqdim olunur. Burada "kəhər" və "sarı" çalarlar sinonim semantik sahəyə daxildir; hər ikisi işıq və doğuluş mənaları daşıyır.

Nağıl poetikasında "sarı at" tez-tez qəhrəmanı xilas edən, ona yol göstərən, qaranlıqdan işığa aparan varlıq kimi çıxış edir. "Üç bığ" nağılındakı təsvir buna nümunədir: *"Bir az sonra Şəmil atasının qəbri üstündən gətirdiyi sarı atı mindi, sarı paltarı, sarı yarağı geyinib uçar quş kimi getdi... Atın ağzından sarı alov çıxa-çıxa quş kimi uçurdu"* [2, s.136]. Burada sarı at işıq, enerji və qələbə simvoludur. Onun "ağzından çıxan sarı alov" motivi ilahi qüvvə ilə təmas mənasını ifadə edir. Bu obraz vasitəsilə xalq təfəkküründə "sarı" rəng güc, həyat enerjisi və qoruyucu işıq ideyalarının daşıyıcısına çevrilir.

Tarixi mənbələrdə "sarılıq" sözü xəstəlik adı kimi işlənir: "*Sarılıq sözü, XI əsrdə və öncəsində bir xəstəliyin adı idi"* [8, s.482]. Bu məna xalq dilində və ədəbiyyatında da öz əksini tapmışdır. "Saralma", "solma" kimi ifadələr insanın fiziki zəifliyinin və ruhən əzab çəkməsinin metaforik formasıdır.

"Dədə Günəş" əfsanəsində günəş düşmənlər tərəfindən ələ keçirilir, lakin su, od, yer və göy onun tərəfində olur. Əfsanə belə bitir: *"Ərəblər qaçıb canlarını qurtarmağı qənimət bilirlər və Xəlifəyə bildirirlər ki, su da, od da, yer də, göy də, bulud da, şimşək də Dədə Günəşin tərəfindədi. O, adi bir insan deyil, bütöv bir vətəndi"* [9, s.260]. Bu süjetdə günəşin "bütöv vətən" kimi təqdim olunması onun xilaskarlıq və həyatvericilik missiyasını göstərir. Sarı işıq burada sadəcə rəng yox, ilahi qüvvənin bədii simvoludur. Günəşin işığı ilə qidalanan buğda və sünbül motivləri də sarı rənglə eyni semantik sahədə birləşir. "Göyün qəzəbi" əfsanəsində buğda sünbülü göyə yalvarır, torpağa bərəkət diləyir: *"Sünbülün harayı kəsilmir, başında biraz dən saxlayır - onu da çörəyin qədrini bilənlərə"* [9, s.253]. Burada sarı sünbül ruzi, bolluq və bərəkətin, həm də müdrikliyin simvoludur. Günəşin sarı rəngi ilə sünbülün sarısı eyni kosmoqonik sistemin elementləri kimi qarşılıqlı bağlıdır. Azərbaycan gerbində də buğda sünbüllərinin təsviri məhz bu qədim mifoloji yaddaşın vizual davamıdır. Eyni anlayış Azərbaycan mifoloji düşüncəsində də öz yerini tapmışdır. Kazımoğlunun qeyd etdiyi kimi: *"Günün işığı mifoloji baxımdan günün gülüşüdürsə, deməli, uşağın işıqdan doğulmasını həm də gülüşdən doğulma kimi mənalandırmaq olar... Qəhrəmanın işıqdan doğulması motivi 'Oğuz Kağan' dastanında daha qabarıq şəkildə əks olunub"* [5, s.19]. Burada "işıqdan doğulmaq" və "gülüş" motivləri günəşlə, dolayısı ilə sarı rənglə eyniləşdirilir. Gülüşün özü də günəşin çıxışı kimi həyatın başlanğıcını simvolizə edir. Bu səbəbdən sarı rəng həyatın və diriliyin metaforası kimi çıxış edir.

Qədim türk inanclarında dünyanın mərkəzi "sarı" ilə işarələnirdi. Yıldırım qeyd edir: *"Eski Türk inanışında hayır ruhu Ülgen'in altın kapılı bir sarayı və tahtı bulunmaktadır.*

*Ülgen'in tahtının altın (sarı) ilə sembolize edilmesi dünyanın merkezini işaret ettiği görüşünü doğurmuştur"* [11]. Bu baxımdan sarı rəng yalnız təbiətin deyil, ilahi nizamın və mərkəziyyətin göstəricisidir. Sarı rəngin pozitiv sakral mənası Qurani-Kərimdə də öz təsdiqini tapır. "Bəqərə" surəsində Musa peyğəmbərə Allah belə buyurur: *"Allah buyurur ki, o, tünd sarı rəngli və baxanlara xoş gələn bir inəkdir"* (Bəqərə, 2:69). İslam təfsirlərinə görə bu parlaq sarı inək xoşbəxtlik, rifah və müjdə rəmzidir. Bu, sarı rəngin ilahi sevinc və ruzi anlayışı ilə birləşməsini göstərir.

Türk xalqlarının şaman inancında bəzi rənglər müəyyən ruhların təbiətini ifadə edir. Məsələn, "Albıs" adlı qadın ruhun bəzən qoruyucu funksiyaya malik olduğuna inanılırdı. Albısın sarı çalarlı geyimi və saçları onun həm cazibə, həm də qorxu doğuran ikili təbiətini göstərirdi. Bu inanclarda sarı rəng ilahi enerji və eyni zamanda ehtiyatlandırıcı qüvvə kimi çıxış edir.

Rəngin sosial-semiotik anlamı yalnız mifoloji deyil, tarixi mətndə də öz yerini tapır. Qədim mənbələrdə qeyd edilir ki, Göytürklərdə sarı rəng hakimiyyət, əsilzadəlik və mərkəz rəmzi idi. *"Göytürklərdə əsilzadə ailəsindən sayılanlara "sarı türklər", digərlərinə isə "qara türklər" deyilirdi"* [4, s.82-83].

Eyni zamanda, Uyğur yazılı abidələrində "sarig urunggu" (sarı bayraq) ifadəsinə rast gəlinir ki, bu da "hakim ulduz" və "mərkəz bürcü" mənasını verir. Çin sarayında sarı rəngin yalnız imperatora məxsus olması da bu anlayışın daha sonrakı mədəni səviyyədəki davamıdır. Atla bağlı yozumlarda da sarı rəngin ikimənalığı qorunur. Fal kitablarında "sarı atlı çaparın gəlməsi" xoş xəbər, "sarı atın hörüyünün açılması" isə pis əlamət sayılır [5, s.40]. Bu nüans sarı rəngin eyni anda iki əks emosional vəziyyəti ifadə etmə qabiliyyətini göstərir.

Sarı at bəzən uğur və zəfərin, bəzən isə həyəcan və təhlükənin simvolu olur. Bu da mifoloji sistemdə işığın həm "yaradıcı", həm də "yandırıcı" funksiyalarına uyğun gəlir. Sarı rəngin semantik yükü yalnız Azərbaycan və türk folklor sistemində deyil, həm də digər qədim mədəniyyətlərdə çoxqatlı və bəzən bir-birinə zidd mənalar daşıyır. Bu rəng həm səadət və müqəddəslik, həm də xəyanət və zəiflik simvolu kimi qəbul edilmişdir. Belə ambivalensiya onun universal mifoloji dəyərini göstərir.

**Nəticə.** Azərbaycan folklorunda sarı rəng həm işıq və bərəkət, həm də xəstəlik və xəbərdarlıq mənaları daşıyan ikimənalı simvol kimi çıxış edir. Dədə Qorqud dastanlarından bayatılara, nağıl və əfsanələrə qədər bu rəngin funksiyası dəyişsə də, mahiyyəti eyni qalır o, həyatverici gücün, ilahi nurun və mənəvi sınağın göstəricisidir. Sarı rəngin həm şaman dünyagörüşü, həm də din və mədəniyyət qatlarında izlərini müşahidə etmək mümkündür. Bu müxtəlif təzahürlər göstərir ki, sarı rəng insanın təbiət, Tanrı və öz varlığı ilə əlaqəsini ifadə edən universal poetik işarə funksiyasına malikdir. Beləliklə, sarı rəng Azərbaycan folklor düşüncəsində həm yaşadan işıq, həm də xəbərdarlıq edən əlamət kimi mədəni yaddaşın dərin qatlarına hopmuş çoxmənalı simvoldur.

**Ədəbiyyat**

1. Azərbaycan bayatıları (2004), Bakı: XXI-Yeni Nəşrlər Evi, 304.
2. Azərbaycan nağılları (2005), III cild. Bakı: Şərq-Qərb, 296.
3. Azərbaycan nağılları (2005), IV cild. Bakı: Şərq-Qərb, 336.
4. Genç R. (1991), Türk Kültüründe Renkler. Ankara.
5. Kazımoğlu (İmanov) M. (2005), Gülüşün Arxaik Kökləri. Bakı: Elm.
6. Kitabi-Dədə Qorqud (2004), Əsil və sadələşdirilmiş mətnlər. Bakı: Öndər Nəşriyyat, 376.
7. Nəbiyev A. (2012), Azərbaycan Xalq Ədəbiyyatı, II hissə. Bakı: Elm, 664.
8. Ögel B. (1984), Türk Mitolojisi. Ankara: Türk Tarih Kurumu.
9. Pirsultanlı S.P. (2009), Azərbaycan Türklərinin Xalq Əfsanələri. Bakı: Azərnəşr.
10. Qafarlı R. (2011), Mif, Əfsanə, Nağıl, Epos. Bakı: Elm, 780.
11. Yıldırım E. (2012), Türk Kültüründə Rənglər və İfadə Etdikləri Anlamlar. İstanbul.